UOT 37.01.

***Xuraman Rəcəb qızı Səlimova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*böyük elmi işçisi*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ MÜƏLLİMLƏRİNİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN ARTIRILMASI ÜÇÜN İNNOVATİV MODELLƏRİN YARADILMASI

***Хураман Раджаб гызы Салимова***
*старший научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

# СОЗДАНИЕ ИННОВАЦИОННЫХ МОДЕЛЕЙ ДЛЯ ПОВЫШЕНИЯ ПРОФЕССИОНАЛИЗМА УЧИТЕЛЕЙ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Khuraman Rajab Salimova***
*senior researcher of Institute of Education of the Republic of Azerbaijan*

# CREATING INNOVATIVE MODELS TO INCREASE THE PROFESSIONALISM OF TEACHERS IN SECONDARY SCHOOLS

**Xülasə.** Müəllif məqalədə müəllim peşəkarlığına nail olmaq üçün həll olunması labüd olan məsələlərdən bəhs edir. O, müəllimin peşəkarlıq səviyyəsini müəyyənləşdirən amilləri qeyd etmiş, innovativ dərs mühitinin yaradılmasının təlimin keyfiyyətinə təsirindən bəhs etmişdir.

***Açar sözlər:*** *təlim, keyfiyyət, peşəkarlıq, yenilik, öyrənmə mühiti, metod.*

**Резюме:** В статье автор упоминает вопросы, которые необходимо решить для достижения профессионализма учителя. Он указал на факторы, определяющие уровень профессионализма учителя, и подчеркнул влияние создания инновационной среды обучения на качество обучения.

***Ключевые слова***: *обучение, качество, профессионализм, инновации, учебная среда, метод.*

**Summary:** The author mentions the issues that must be solved to achieve teacher professionalism in the article. He pointed out the factors that determine the level of professionalism of the teacher and highlighted the impact of the creation of an innovative learning environment on the quality of the training.

***Key words:*** *training, quality, professionalism, innovation, learning environment, methodology.*

Müəllimin peşəkarlıq səviyyəsinin artırılması respublikamızda cəmiyyətin tərəqqisi və müasir təhsilin keyfiyyət göstəricilərindən biri kimi dəyərləndirilir. Bu baxımdan son illər ölkədə bu sahədə aparılan genişmiqyaslı işlər təhsilin inkişafı baxımından çox əhəmiyyətlidir. Müasir müəllimin peşəkarlığı onun öz işini bilməsi, hazırlıqlı olması, yeniliklər axtarışında olması, peşəkarlığının artırılması ilə bağlı keçirilən seminar və təlimlərdə iştirakı, şagird və valideynlərlə əməkdaşlığı düzgün təşkil etməsi və ən əsası, təlimin təşkili prosesini innovativ tələblər baxımından düzgün təşkil etməsidir. Şəxsiyyətin yetişməsində, onun cəmiyyətə hazırlanmasında əsas rol oynayan müəllim peşəsi digər peşələrdən özünəməxsusluğu ilə seçilir.

Bu gün aktuallığı ilə özünə xüsusi yer ayıran problemlərdən biri də təhsilin keyfiyyəti və bu keyfiyyətə təsir edən amillərdən biri kimi müəllimin keyfiyyət göstəriciləri məsələsidir. Müəllim peşəsinə elmi-pedaqoji yanaşmalarda müxtəlif cür tərif verilsə də, həmçinin münasibətlər bildirilsə də cəmiyyətdə də bu peşənin cavabdehlərinə müxtəlif tələblərlə yanaşmalar var.

Prof. A.O. Mehrabov göstərirdi ki, "Təhsildə konseptual xarakterli işlərin yerinə yetirilməsi mürəkkəb xarakterli məsələlərin həllini bacaran və müasir tələblərə cavab verən yeni sosi-

al və yeni məna daşıyan keyfiyyətli pedaqoji kadrların hazırlanmasını tələb edir”[1].

Təhsildə hər şey sinif müəllimlərindən başlayır deyən professor Y. Kərimov yazır: “...Elmin, təhsilin vüsət aldığı indiki dövrdə də ibtidai sinif müəllimi olmaq hünər tələb edir. Sinif müəllimini digər müəllimlərdən fərqləndirən bir-iki cəhətə nəzər salaq:

1) Sinif müəllimi yüksək valideynlik məhəbbətinə malik olan şagirdlərini övladları kimi sevən, qayğıkeş, səbirli, təmkinli, həssas, fədakar şəxs olmalıdır. Pedaqoji ustalıq humanist mövqe və pedaqoji ünsiyyətdən, pedaqoji əməkdaşlıq mühitdən başlanır və tədris-tərbiyə prosesini optimallaşdırır;

2) Sinif müəllimi altıyaşlıların səviyyəsinə enməyi, onlarla dil tapmağı, onları kollektiv fəaliyyətə qoşmağı, əylənməyi, valideynlərlə sıx əməkdaşlıq etməyi bacaran şəxs olmalıdır;

3) Tarix, Kimya müəllimindən Azərbaycan dilini, riyaziyyatı, biologiyanı, başqa fənləri mükəmməl bilmək, müəyyən alətdə çalmaq, oxumaq, uzununa tullanmaq, plastilindən, təbiət materiallarında fiqurlar düzəltmək tələb olunur. Sinif müəllimi isə dərs dediyi fənləri bilməlidir...”.

Professor nəticə kimi göstərir ki, “...deməli sinif müəlliminin hərtərəfli hazırlığa malik olmasına, üstəlik pedaqogika, psixologiya, fiziologiya və sosiologiyanın sirlərinə yiyələnməsinə daha çox ehtiyac duyulur...”[2].

Aparılan araşdırmalar zamanı müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı deyilən fikirləri ümumiləşdirərək müəllim peşəkarlığının üçün aşağıdakı məsələlərin həllinə nail olmaq lazımdır:

1) Müəllimlərin pedaqoji və psixoloji hazırlıq səviyyəsini müəyyən etmək. Fənnin tədrisinə nəzarət.

2) İnnovativ təlim tələblərinə əsasən peşəkarlığın artırılması;

3) Müəllimlərin ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinə xidmət edən müvafiq resursların yaradılması məqsədi ilə təşkil olunan müsabiqə mexanizmlərinin hazırlanmasında yaxından iştirakı;

4) Müasir pedaqoji yanaşmanı özündə əks etdirən innovativ təlimlərə cəlb olunması;

5) Müəllimin təlimi pedaqoji əsaslı müvafiq meyarlara uyğun təşkil etməsi;

6) Dərsi həyatla əlaqələndirərək, tədqiqat xarakterli tədris etməsi;

7) Təhsilalanların dərsdə və dərsdənkənar vaxtlarda dövlət tələbləri əsasında inkişafına nail olması;

8) Peşəkarlığının artırılmasına xidmət edən seminarlar, müsabiqələrdə və s. iştirak etməsi;

9) Təcrübəsini bölüşmək məqsədi ilə fəaliyyətini əks etdirən elmi-metodik məqalələrlə çıxış etməsi və s.

Müəllimlərin ixtisasartırmaya, pedaqoji təcrübəyə yiyələnmələri, milli və beynəlxalq konfranslarda məruzə və elmi nəşrlərlə çıxış etmələri, ayrı-ayrı mövzulara aid təşkil edilən seminarlarda elmi-metodik fikirlər söyləmələri, elmi-metodik vəsaitlər, dərslik, innovativ təlim metodologiyasını əks etdirən metodik resursların hazırlanmasına və s. cəlb olunaraq, yaxından iştirak etmələri müasir təhsilin müəllimlərin peşəkarlığının artırılması istiqamətində qarşıya qoyduğu tələblərdəndir. Bu məqsədlə respublikada müəllim fəaliyyətini qiymətləndirmək məqsədi ilə təşkil edilən ixtisas üzrə müsabiqələrdə, təcrübə yarışlarında iştirak etməsi, öz qüvvəsini yoxlaması, yüksək yerlər tutması, yaxud yüksək yeri tuta bilməsə də, bu sahədə peşəkarlığını artıraraq, gələcək turlarda iştirak üçün özünə yeni bilik qüvvəsi toplamış olur.

Müəllim ixtisasını yaxşı bilər, fənnini yaxşı tədris edən, şagirdlərə məhəbbət bəsləyən, vətənpərvər şəxsiyyət, Azərbaycan tarixini bilən, ana dilimizdə səlist danışan və milli-mənəvi dəyərlərimizi şagirdlərə dərindən öyrədən şəxsiyyətdir. Bütün bunlar müasir Azərbaycan müəlliminin fəaliyyətinin keyfiyyət göstəriciləri olmaqla, onların fəaliyyətinə verilən qiymət meyarlarına daxildir. Bununla bağlı orta ümumtəhsil məktəblərində aparılan müşahidələr, söhbətlər və monitorinqlər respublikamızda müəllimlərin böyük əksəriyyətinin müəllimlik adını qeyd olunan keyfiyyət göstəricilərinə uyğun doğrultduqlarını deməyə əsas verir.

Respublikamızda müəllimlərin əməyinə, ixtisas fəaliyyətlərinin təkmilləşdirilməsinə, fəx-

---

[1] A.O.Mehrabov. Pedaqoji kadr hazırlığı: problemlər, vəzifələr mövzusunda beynəlxalq simpoziumun materialları. Naxçıvan, noyabr, 2009, 218 s.

[2] Y.Ş.Kərimov. Beynəlxalq simpoziumun materialları. Naxçıvan, 2009, səh. 14,15.

ri adların verilməsinə Hörmətli Prezidentimiz İlham Əliyev Cənabları, Nazirlər Kabineti və Təhsil Nazirliyi böyük diqqət yetirir, xüsusi qayğı göstərir, müəllim fəaliyyətinin qiymətləndirilməsi istiqamətində müəyyən sərəncamlar, qərar və əmrlər verilir ki, bütün bunlar da ölkə təhsilinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Müəllimlərin peşəkarlığının artırılması ilə bağlı son illər Təhsil Nazirliyinin Təhsil Qanuna əsasən qəbul etdiyi qərarlar və əmrlər, "Baş müəllim", "Metodist müəllim" (Şöhrət ordeni, Tərəqqi medalı, "Əməkdar müəllimi" fəxri adları), "Qabaqcıl Təhsil işçisi" döş nişanının və s., eyni zamanda, müəllimlərin diaqnostik qiymətləndirilməsi dövlətin hüquqi-normativ sənədləri əsasında həyata keçirilməklə, onların peşəkarlığının artırılımasının stimulverici dəyərləridir.

**Problemin aktuallığı.** Müəllimin sadalanan peşəkarlıq komponentlərindən ən başlıcası onun təlim zamanı sinfi idarəetmə bacarığıdır. Hər bir müəllimin təliminin uğurlu olması da elə bu komponentdən başlayır. Bununla bağlı son illər respublikamızda "Sinfin idarəedilməsi" mövzusunda layihənin keçirilməsində də əsas məqsəd müəllimlərin peşəkarlığının inkişaf etdirilməsidir.

**Problemin elmi yeniliyi.** Müəllimin hərəkətləri nümunəvi, dinamik olmalı, münasibətlərdə səmimi olmalı, şagirdə obyekt yox, subyekt kimi yanaşaraq, təlimi "subyekt-subyekt" münasibətləri əsasında təşkil etməli, şagirdi gələcək cəmiyyətə hazırlanan şəxsiyyət kimi görülməlidir. Sağlam mühit yaratmaqla sinifdə şagirdin özünün rahat hiss etməsini təmin etməlidir.

**Problemin praktik əhəmiyyəti.** Modern təhsilin tələbinə əsasən təlimin fasilitatoru olan müəllim şagirdlə ünsiyyətdə mükəmməl səriştə göstərməli, onunla birgə iş prosesinə qatılmalı, onu yönləndirən şəxsə çevrilməlidir. Müasir dövrdə müəllim bacarığına, onun fəaliyyətinə yanaşmanın fərqli istiqamətlərindən biri də müəllim şagirdlə əməkdaşlıq şəraitində dərs mühiti yaratmalıdır. Əgər sinifdə müəllim-şagird münasibətləri tənzimli, əməkdaşlıq şəraitində olmazsa o sinfin keyfiyyət göstəricisi yüksək olmaz. Bəzən keyfiyyət dedikdə dərhal əlaçısı çox olan sinfi və ya fənnindən yüksək qiymət alan müəllimin şagirdlərin nəticəsini təkcə nəzərə almaqla yekunlaşırıq.

## Ədəbiyyat:


1. http://www.president.az/articles/9779
2. A. Əliyeva, X. Talıbova, V. Qasımov. Dünya təhsilində pedaqoji kadrların peşəkar inkişafı. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2016.
3. Məcidova N. Ən şərəfli peşə: Metodik vəsait. Bakı, 2013.
4. Məmmədov B. İdeal müəllim. Bakı: Ekoprint. 2018.
5. İlyasov M. "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri": Monoqrafiya Bakı: Elm və təhsil, 2018.
6. Kərimov Y. Seçilmiş əsərləri. II cild. Bakı: Pedaqogika, 2007.


**E-mail:** xuraman.salimova@mail.ru

**Rəyçilər:** *ped. ü. fəls.dok., dos.* **İ. Cavadov**
*ped. ü. fəls.dok.* **N. Axundov**

**Redaksiyaya daxil olub**: 23.08. 2019